Ədalət.- 2020.- 19 may. S. 4.

# RƏSUL RZA VƏ ƏLİ KƏRİM POEZİYA KULUBU

**XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Əli Kərimin vaxtsız ölümü qeyri-adi bir yanğı ilə qarşılanmışdı. 1969-cu ilin isti yay günündə, Əli Kərimin dəfn mərasimində göy üzünün qəfil tutulub 10 -15 dəqiqə ərzində soyuq bir yağışın yağması da qeyri-adi hadisəydi. Dəfn vaxtı şair Tofiq Bayramın məzara enib "Məni də basdırın, diri-diri basdırın..." yalvarışı da insanı dəhşətə gətirən mənzərə idi.**

Mən onda orta məktəbi bitirib ali məktəbə daxil ola bilməyən yeniyetmə bir gənc idim və Əli Kərimin ney nailəsi və şeirlərlə dəfnini əl-ayağımın, bütün vücudumun titrəyişi ilə yaşayırdım.

Günlər, aylar ötürdü. Sanki bu nakam şairə bəslənən ümumxalq məhəbbəti, çoxsaylı oxucu sevgisi indi daha böyük miqyas alırdı. Respublikada gerçək bir Əli Kərim bumu yaşanırdı.

Əli Kərimin məzarı olan ərazidə böyük bir parkın salınmasına başlanıldı. Göyçaylılarla yanaşı, az qala hər həftə Bakıdan və respublikanın əksər şəhər və rayonlarından bu məzarı ziyarətə gələnlər olurdu. Heyrətamiz idi.

### *Sumqayıtda*

**mərhum Vaqif İbrahimin rəhbərliyi ilə Əli Kərim gənclik poeziya kulubu yaradıldı. Ardınca belə bir klub Göyçayda da yaradıldı. Böyük xalq şairimiz Rəsul Rzanın tövsiyəsi ilə. Bu klub bir müddət ayda 1 dəfə olmaqla mədəniyyət evində toplaşıb formalaşmağa başladı. Sonra hər ay üçün dəqiq gün müəyyənləşdirildi. Əgər mən Bakıdayamsa mütləq rayona gəlməli idim. Digərləri də eləcə. Bakı, Sumqayıt, Gəncə, Ucar, İsmayıllı, Ağdaş, Göyçay... Növbəti toplanışların birində belə qərara gəlindi ki, klubun fəaliyyətinə mən rəhbərlik edim. Sonra biz məsələ qaldırdıq ki, böyük şairimiz Rəsul Rzanı kluba fəxri sədr seçək. Bu münasibətlə növbəti toplanışımıza Rəsul Rzadan Göyçaya gəlməsini xahiş etdik. Bu xahişimzi şair İbrahim Göyçaylı vasitəsilə çatdırmışdıq. Biz tədbirə yüksək səviyyədə hazırlaşsaq da çoxları Rəsul Rzanın gəlməyəcəyini düşünürdü.**

O, gəldi!

Bundan sonra bütün toplantı və məşğələlər əvvəlcə Əli Kərimin məzarını ziyarətlə başlayıb, Əli Kərimin şeirləri ilə bitirdi. Sözsüz ki, klub üzvləri də öz yaradıcılıq hesabatlarını verir, şeirlərini oxuyur, ürək sözlərini də bildirirdilər. Vaqif İbrahim avtomobil qəzasında həlak olana qədər bizim bütün tədbirlərimizə qatılırdı. Bizdən də Sumqayıta gedənlər olurdu. Sabir Adil, Səfərəli Sarvan, Adil Məmməd, Ətraf Alməmmədoğlu...

Əvvəllərdən də kitaba, ədəbiyyata meyilli olan göyçaylı gənclər, hətta yaşlı sakinlər



bu klubun adını ucaltmağa çalışırdılar. Qonaqpərvərlik də öz yerində. Kim Əli Kərim adına, işığına Göyçaya gəlirdisə, mütləq böyük hörmət və ehtiramla qarşılanır, müşaiyət olunur, qonaq edilirdi. Bu münasibətlərin hansı səviyyədə olduğunu ən azından Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Aqil Abbas, Vaqif Cəbrayılzadə, Loğman Rəşidzadə, Vaqif Bəhmənli və başqaları xoş xatirələr kimi xatırlayarlar.

***Beləliklə Əli Kərim poeziya klubunun üzvləri Göyçayda çıxan məhşur "Yeni həyat" qəzetindən başlayaraq, mərkəzi mətbuata, radio və televiziyaya cığır açırdılar. Bütün imzalar fəxri sədrimiz Rəsul Rzanın xeyir-duası ilə " sevinirdi " . Hətta rayon qəzetində də dahi şairə göstərib razılıq almadan klub adına bircə şeir də təqdim edə bilməzdin. Çünki bir dəfə yüngülcə danlanmışdım.***

Böyük şair təkcə kluba fəxri sədrlik etməsi ilə kifayətlənmirdi. Əli Kərimin doğum və vəfat günlərində mütləq Göyaçaya gələr, onun məzarını bizimlə birlikdə ziyarət edərdi. Bu artıq o vaxtlar idi ki, mən də universiteti bitirib rayon qəzetində işləyirdim.

### *Çoxları bilmirdi ki,*

son illər şair diabet xəstəliyindən necə əziyyət çəkir. Ancaq bununla belə o, bizimlə əlaqəni kəsmirdi. Göyçaya gələndə ilk olaraq mütləq məhşur jurnalist Qulu Məmmədovun və rayonda hamının sevimlisi olan ağayana Mirkərim həkimi və onların ailə üzvlərini görmək istəyərdi.

Şəhərə çıxmazdı, bəzi yaradıcı adamlar kimi izdihamlı tədbirləri, sifarişli yığıncaqları, lap dəqiqi özünü göstərməyi sevməzdi. Bəzən bunu başqa cür yozsalar da, ancaq elə deyildi. Ona bütün varlığı ilə poeziyaya bağlı olan 15-20 nəfərlə də Əli Kərimi xatırlamaq bəs edərdi. Özü də çıxışını hər dəfə Əli Kərimə "əziz qardaşım" deyə müraciətlə başlayardı. Bəzən bu tədbirlər zamanı havanın tempuraturu 40 dərəcəni də aşırdı. Vaxtsız xəstələnib qocalan böyük şairsə... Ustad Əli Kərimə və əsl poeziyaya görə çox şeylərdən keçirdi.

***Sadə, sanki gizli-gizli nur saçan böyük qəlbli bir şəxsiyyət idi Rəsul Rza. SSRİdən tutmuş Kanadayadək tanınan və oxunan dahi bir şairin sevgi, şöhrət barədə gözü tox idi. Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı SSRİ Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, çoxlu orden və medallar...***

O, həm də çox təvazökar həyat tərzi keçirirdi. Yaradıcılıq, ədəbiyyata xidmət, istedadlı gənclərə mümkün köməkliklər, insanları dürüst, vətənsevər görmək, eyni zamanda müstəqilik və türkçülük ideyaları həyatının mənası idi. Rəsul Rza Göyçaya gələndə oğlu Anarın "Atayurt" adlandırdığı sadə, ancaq orijinal tikiliş və quruluşa malik bağ evində qalırdı. Məni bəzən özü çağırtdırırdı.

Bəzən də üzlüyümə salıb bir bəhanə ilə onun görüşünə gedirdim. Böyük şair özü üçün ayırdığı guşədə elə taxtadan hazırlanmış taxtda kiçik bir döşəkcəyə söykənib məndən kulubun fəaliyyəti barədə lazım bildiyi məlumatlar alar, hərdən nə istədiyimi soruşar (çaydan-sudan), hərdən mürgüləyər, hərədən də əlindəki tranzistorda məlum radiostansiyaları axtarardı. Nigar xanım Rəsul müəllimdən də sadə və ünsiyyətcil idi. Bir dəfə payızda gəlmişdilər. Həyətdəki meyvələrin bar verdiyi zaman. İcazə alıb içəri keçəndə gözlərimə inanmadım. Rəsul müəllim həmişəki yerində topa vərəqlərə baxırdı. Nigar xanımla onların yaxın qohumları olan Sara xanım yerdə əyləşib elə mənim anam kimi böyük bir nimçəyə heyva qıçalayırdılar. Salamlaşdıqdan sonra onlara qoşulub mən də heyvaları dilimləməyə başladım. Bir az sonra Nigar xanım gülümsəyərək: "Sən bunu bizdən yaxşı bilirsənmiş ki..." deyərək səbəbini də soruşdu.

**- Evin böyük uşağı olduğum üçün anama hər işdə kömək edirdim, vərdiş qalıb...**

Cavabım təbəssümlə qarşılandı.

Nə qədər sadə, səmimi, saf qəlbli kübar insanlar! Rəsul Rza və Nigar Rəfibəylinin - iki xalq şairinin evində olmaq, söhbət etmək, iş görmək, mürəbbəli çay içmək... Bu da mənim xoşbəxtliyim idi. Mən bu imtiyazları Əli Kərim poeziya klubunun ardıcıl fəaliyyətinə, işıqlı, ümüdverən gəncləri böyük şairə doğru-dürüst təqdim etdiyimə və çox güman ki, Rəsul müəllimin mənə bəslədiyi inam və etibara görə qazanmışdım.

### *Bir müddət sonra*

**Rəsul müəllimin icazə verdiyi şeirləri qəzetdə həmişəki kimi " Əli Kərim poeziya kulubunda " başlığı ilə hazırlayıb dərc etdirdim. Müəlliflər bu dəfə böyük şairin də şeirlərə yığcam münasibətini oxuyub çox sevindilər. O, ən çox Mahir N.Qarayevi bəyənirdi.**

Az keçməmiş "Kommunist" qəzetində Rəsul müəllimin respublikanın inkişafını, zəhmət adamlarının fədakarlığını, Azərbaycanın gözəl gələcəyini vəsf edən silsilə məqalələrini oxuduq.

İlahi, bu necə məqalə, necə yanaşma, bu hansı publisistika idi? Bütün ixtisaslaşmış peşəkarlar, bütün məhşur jurnalistlər də heyrətə gəlmişdi. Bu, jurnalistikamız üçün əsl master- klass idi!

Rəsul Rza haqqında sənədli film çəkilirdi. Bir hissəsi Göyçayda lentə alınmalı idi. Ustad çəkilişdən qabaq bir rəsmi şəxsə üz tutub demişdi ki, Məzahirə xəbər verin, təcili Əli Kərim poeziya klubunun bir neçə üzvünü tapıb özü ilə gətirsin. Nə yaxşı ki, qısa vaxt ərzində 3 nəfər klub üzvüylə "Atayurt"da oldum.

Bu, böyük şairimiz haqqında çəkilən son film imiş. 1981-ci ilin aldanış gününə az vaxt qalmışdı...

***P.S.** **Bu gün dünya şöhrətli Rəsul Rzanın anadan olmasının 110 illiyidir.***

**Məzahir ƏHMƏDZADƏ**